# İDMANDA BÖYÜKLƏRİN MÜDAFİƏSİ

## İdmanda böyüklərin beynəlxalq müdafiə təminatlarının hazırlanması

Sentyabr 2023

**"Safe Sport International" təşkilatının layihəsi**

**Dr. Daniel Rayndın araşdırması əsasında hazırlanmışdır**

**"Safe Sport International" təşkilatının İnklüziv Təminatlar Komitəsi:**

Anna Tiivas
Keri Fastinq
Sandra Kirbi
Kler Barrell
Diana Haffman
Mark Munqal

Onlayn multidisiplinar ekspert müzakirələrində iştirak edən hər kəsə, SSI Komitələrimizə (İdmançıların Səsi Komitəsi, Təhsil, Kommunikasiya və Təlim Komitəsi və Tədqiqat Komitəsi) və hazırkı müdafiə təminatlarının hazırlanması prosesi ərzində rəy və məsləhətlərini bölüşmüş SSI Məsləhət Şurası üzvlərinə dərin təşəkkürümüzü bildiririk.

# Xülasə

Son illərdə idmanda müdafiə məsələsinə diqqət artmış və tədqiqatların, siyasətlərin və təcrübələrin əksəriyyəti uşaqlara yönəlmişdir. Bununla belə, idmanda hər kəsin müdafiəsini təmin etmək öhdəliyinin olduğu və şəxsin 18 yaşına çatan kimi birdən-birə təhlükəsizlik qazanmayacağı qəbul edilməlidir. Bu layihənin məqsədi idmanda böyüklərə yönəlmiş ilk beynəlxalq müdafiə təminatlar dəstini hazırlamaq olmuşdur. 1-ci mərhələdə idmanda və ondan kənarda böyüklərin müdafiəsinə dair sübutların sürətli qiymətləndirilməsi aparılmışdır. 2-ci mərhələdə isə müxtəlif maraqlı tərəf qruplarını təmsil edən 33 iştirakçı ilə onlayn multidisiplinar ekspert müzakirəsi keçirilmişdir. Müzakirə zamanı uşaqlarla müqayisədə böyüklərin müdafiəsindəki fərqlər və çətinliklər nəzərdən keçirilmişdir. 1-ci və 2-ci mərhələlərdə əldə edilmiş nəticələr əsasında, uşaqlar üçün nəzərdə tutulan mövcud versiya əsas götürülməklə, idmanda böyüklər üçün beynəlxalq müdafiə təminatlarının layihəsi hazırlanmışdır. 3-cü mərhələdə böyüklər üçün nəzərdə tutulan bu layihə versiyası üç məsləhət qrupunu (idmançıların səsi; təhsil, kommunikasiya və təlim; tədqiqat) təmsil edən 15 ekspert tərəfindən nəzərdən keçirilmişdir. Əldə edilən rəylərdən istifadə etməklə, bu məqalədə təqdim olunan idmanda böyüklər üçün beynəlxalq müdafiə təminatlarının son versiyası hazırlanmışdır. Burada 16 və 17 yaşlı iştirakçılar üçün xüsusi məsələlər də vurğulanmışdır. Uşaq versiyası ilə birlikdə, bu resurslar idmanda iştirak edən hər kəsin müdafiəsinə inklüziv yanaşmanı təşkil edir.

# Giriş

İdmanda fərdlərin müdafiəsi zərurəti yalnız uşaqlara deyil, bütün iştirakçılara şamil olunmalıdır. Bura hakimlər, məşqçilər, idmançılar, könüllülər və azarkeşlər kimi böyüklər də daxildir. Böyüklər, yaşından və ya kimliyindən asılı olmayaraq, idmanda kobud rəftar və zərərə məruz qala bilərlər. İdman mədəniyyətinə dair aparılan araşdırmalar, o cümlədən mediada işıqlandırılan məsələlər idmanda yetkin idmançılara qarşı kobud rəftarın geniş yayıldığını göstərir. Bu idmançılar öz idman növlərində fərdlər tərəfindən fiziki, emosional və cinsi xarakterli kobud rəftara məruz qalıblar ki, bu da müdafiənin şəxsin yetkinlik yaşına çatmasından sonra dayanmamalı olduğunu nümayiş etdirir. Qeyri-rəsmi məlumatlarla yanaşı, araşdırmalar göstərib ki, yaşı 23 və ya daha yuxarı olan elit qadın idmançılardan ibarət qrupun 42%-i idmanda kişi cinsli səlahiyyətli şəxslər tərəfindən cinsi qısnama və kobud rəftara məruz qalmaqla bağlı məlumat vermişdir ki, bu da gənc idmançılarla müqayisədə əhəmiyyətli dərəcədə yüksək göstəricidir (Fasting et al., 2003). Bu layihə xüsusi olaraq idmanda böyüklərin müdafiəsinə yönəlmiş zəruri təminatların hazırlanması məqsədi daşımışdır.

# Uşaqların idmanda müdafiəsi

İdmanda kobud rəftar hökumətlər, idman idarəetmə orqanları, universitetlər, hüquq müdafiəçiləri və tədqiqatçılar da daxil olmaqla, idman sahəsindəki bütün maraqlı tərəflər, habelə cəmiyyətdə uşaqların və böyüklərin müdafiəsinə görə qanuni öhdəlik daşıyanlar üçün ciddi məsələyə çevrilmişdir. Tədqiqatlar göstərmişdir ki, uşaqlar mütəşəkkil idman kontekstində cinsi, fiziki və emosional xarakterli kobud rəftar daxil olmaqla, bir sıra hüquq pozuntuları ilə üzləşirlər (Rhind et al., 2015). Əsas diqqət uşaqlara yönəlmişdir, çünki bu, müvafiq sahədə aparıcı olan təşkilatların fəaliyyət sahəsidir. İdmanda uşaqlara qarşı kobud rəftar uşaq hüquqları prizmasından araşdırılmışdır (David, 2005). BMT, UNICEF və Beynəlxalq Olimpiya Komitəsi (BOK) kimi təşkilatlar, kobud rəftar və qısnamanın uşaqların hüquqlarını pozduğunu bildirən siyasətlər qəbul etmiş və bəyanatlar hazırlamışdır.

Əsas nailiyyətlərdən biri "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları"nın hazırlanması və istifadəyə verilməsi olmuşdur (Rhind & Owusu-Sekyere, 2020). Bu Təminatlar aşağıdakı sahələri əhatə edir: (1) siyasətin hazırlanması, (2) müdafiə ilə bağlı problemlərə cavab vermə prosedurları, (3) məsləhət və dəstək, (4) uşaqlar üçün risklərin minimuma endirilməsi, (5) davranışla bağlı təlimatlar, (6) işçilərin işə qəbulu, təlimi və məlumatlandırılması, (7) tərəfdaşlarla iş, (8) monitorinq və qiymətləndirmə. Onlar ədəbiyyatın, empirik sübutların, müvafiq siyasətlərin, milli və yerli səviyyələrdə mövcud proqramların hərtərəfli təhlili əsasında hazırlanmışdır.

Beynəlxalq müdafiə təminatlarının həyata keçirilməsi işinin təsiri 32 təşkilatın iştirak etdiyi uzunmüddətli tədqiqat

layihəsində müəyyən edilmişdir (Rhind & Owusu-Sekyere, 2019). Əsas dəyişikliklər təşkilati, şəxsi və davranış səviyyələrində müəyyən edilmişdir. Təşkilatlar müdafiə təminatlarını tətbiq etdikcə, insanların idmanda müdafiə ilə bağlı düşüncə və təəssüratları daha müsbət olmuşdur. Müdafiə ilə bağlı müzakirələrin xarakterində də dəyişikliklər qeydə alınmışdır, belə ki, layihənin əvvəlində ümumi olaraq qarşı çıxan insanlar layihənin sonunda fəal iştirakçı olmuşdur. Davranış dəyişiklikləri də müşahidə edilmişdir: insanlar təhlükəsiz təcrübələrə daha uyğun şəkildə davranmış və müdafiə ilə bağlı problemlərin açıqlanma sayında artım qeydə alınmışdır. Müdafiə ilə bağlı məsələlərdə uşaqlarla daha fəal iş aparılması mədəni dəyişikliyin mühüm göstəricisi kimi olmuşdur (Rhind & Owusu-Sekyere, 2019). Bu Təminatların effektiv tətbiqinin aşağıdakı CHILDREN prinsiplərinə əsaslandığı müəyyən edilmişdir: mədəni həssaslıq, hərtərəfli yanaşma, təşviqlər, liderlik, dinamiklik, resurslar, qarşılıqlı əlaqə və şəbəkələr (Rhind et al., 2017). İndiyə qədər "Beynəlxalq müdafiə təminatları" dünya üzrə 50 milyondan çox uşaqla işləyən 125-dən çox təşkilat tərəfindən təsdiqlənmişdir.

# İdmanda böyüklərin mövcud müdafiə təminatları və hüquqları

Əvvəlki işlərin nəticələri göstərir ki, təminatlar tam şəkildə tətbiq edildikdə insanları qoruyur. Bununla belə, böyüklər və uşaqlar fərqlidir. Böyükləri qorumaqla yanaşı, onların öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşan müdafiə təminatlarını hazırlamaq üçün bu fərqlər nəzərə alınmalıdır. Öz müqəddəratını təyinetmə hüququ beynəlxalq hüquqda "xalqın öz taleyini müəyyən etmək hüququ" kimi tanınır (Təmsil Olunmayan Millətlər və Xalqlar Təşkilatı, 2017) və əsasən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsində təsbit olunmuşdur (BMT, 1948). Xüsusilə idmanda böyüklər və öz müqəddəratını təyinetmə ilə bağlı olaraq, Böyük Britaniyada fəaliyyət göstərən və idmanda böyüklərin müdafiəsi çərçivəsini təmin edən Ann Craft Trust (ACT) təşkilatı böyüklərin müdafiəsinin unikal aspektini vurğulayır: "böyüklər özlərini qorumaq üçün heç bir tədbir görməyə bilərlər." Böyüklər və uşaqlar arasında öz müqəddəratını təyinetmənin fərqli xüsusiyyətləri ilə yanaşı, ACT həmçinin istifadə olunan terminlərin fərqli olduğunu, hadisələr barədə məlumat verilməsi və onlara baxılması prosedurlarının fərqli olduğunu və qanunvericilikdə əhəmiyyətli fərqlərin mövcud olduğunu vurğulayır. İdmanda böyüklər üçün daha çox aktual olan məsələlər də ola bilər, məsələn, qeyri-bərabər əmək haqqı (23-cü maddənin pozulması) və övlad sahibi olma ilə bağlı problemlər (25-ci maddənin pozulması).

İdmanla bağlı mövcud olan azsaylı araşdırmada əsas diqqət başlıca olaraq ACT tərəfindən, habelə qabaqcıl təcrübə üçün prinsipləri, rəhbər çərçivəni təmin edən və böyüklərin məruz qala biləcəyi kobud rəftarın növlərini (özünə laqeydlik, müasir köləlik, məişət xarakterli kobud rəftar, ayrı-seçkilik, təşkilati, fiziki, cinsi, maliyyə və ya maddi istismar, laqeydlik və hərəkətsizlik, emosional və ya psixoloji təzyiq, kiber-bullinq, məcburi evlilik, nifrət cinayətləri və radikallaşdırma) müəyyən edən 2014-cü il tarixli Qayğı Aktında (Böyük Britaniya) zərərə məruzqalma riski yüksək olan böyüklər kimi müəyyən edilmiş şəxslərə yönəlmişdir. Bundan əlavə, ACT elit idmanda kobud rəftar, bullinq, qısnama

və pis davranışlar barədə məlumatlar əsasında yetkinlik yaşına çatmış elit idmançıların həssaslığını vurğulamışdır. 2015-ci ildə nüfuzlu media hesabatlarının fonunda, Böyük Britaniyanın idman nazirinin tapşırığı ilə Baronessa Tanni Grey-Tompsonun (DBE, DL) rəhbərliyi altında aparılmış "İdmanda qayğı öhdəliyi" adlı müstəqil təhlil nəticəsində təhsil, keçid dövrü, təmsilçilik, bərabərlik, müxtəliflik və inklüzivlik, müdafiə, əqli rifah və təhlükəsizlik, zədələr və tibbi məsələlərlə bağlı çoxsaylı tövsiyələr irəli sürülmüşdür (Grey-Thompson DBE, 2017).

Beynəlxalq səviyyədə, idmanda böyüklərin hüquqları Beynəlxalq Olimpiya Komitəsi (BOK) tərəfindən müəyyən edilmişdir. 1.4-cü maddədə BOK xüsusi olaraq bildirir ki, idmançıların insan hüquqlarına hörmət edilməli və bu hüquqlar təmin edilməlidir, o cümlədən:

> "insan ləyaqətinə hörmətlə yanaşmaq; - irq, rəng, cins, cinsi oriyentasiya, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğum və ya digər statusa görə heç bir ayrı-seçkiliyə yol verməmək; - istər fiziki, istər peşə, istərsə də cinsi xarakterli hər cür qısnama və kobud rəftardan, fiziki və psixi zərər yetirməkdən imtina etmək"

Bundan əlavə, 2017-ci ildə Dünya Oyunçular Assosiasiyası hər bir oyunçuya idarəedici orqan və idman sahəsi tərəfindən təmin edilməli olan 17 hüquq və imtiyazdan ibarət olan Ümumdünya Oyunçu Hüquqları Bəyannaməsini nəşr etmişdir. Ümumdünya Oyunçu Hüquqları Bəyannaməsinin birinci bəndi hər bir oyunçunun "yaxşı idarə olunan, korrupsiya, manipulyasiya və fırıldaqçılığın olmadığı, idmanla məşğul olan və ya idmandan təsirlənən hər kəsin əsas hüquqlarını qoruyan, təmin edən və onlara hörmətlə yanaşan idman mühiti"ndən yararlanmaq hüququnu təsbit edir. Universitetlər və idman təşkilatları xüsusi

olaraq böyüklərə aid siyasətlər hazırlamağa başlamışdır (Brake, 2011; Brake & Burton Nelson, 2012; Hogshead-Makar & Steinbach, 2002). Məsələn, Avstraliya Futbol Federasiyası belə bir bəyanatla çıxış etmişdir: "İdmanımızda iştirak edən hər kəsə hörmət və ləyaqətlə yanaşmalı və o, ayrı-seçkiliyə, qısnamaya, bullinqə və ya kobud rəftara məruz qalmadan idmanla məşğul ola bilməlidir." Avstraliya Futbol Federasiyası kimi, Cənubi Afrika Gimnastika Assosiasiyası da müdafiə siyasətində bildirir ki, assosiasiya "gimnastika idmanında iştirak edən hər kəsi qısnama və kobud rəftardan qorumağa və müdafiə etməyə, bütün iştirakçılara hörmət və ləyaqətlə yanaşılmasını təmin etməyə sadiqdir."

Bu irəliləyişlərə baxmayaraq, idmanla məşğul olan bütün böyüklər üçün vahid və beynəlxalq səviyyədə tanınan müdafiə təminatları toplusuna aşkar ehtiyac vardır. "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları" ilə yanaşı, böyüklər üçün nəzərdə tutulmuş xüsusi versiyanın olması idmanda hər kəsin müdafiəsini təmin etmək üçün hərtərəfli və inklüziv yanaşma yaratmağa kömək edəcəkdir. Uşaq versiyasını əsas götürərək, hazırkı layihə bu suala cavab tapmağa çalışmışdır: İdmanda bütün böyükləri qorumaq üçün nələr təmin edilməlidir?

# Metod

## Mərhələ 1: Sübutların sürətli qiymətləndirilməsi

Bu tədqiqatın birinci mərhələsi sübutların sürətli qiymətləndirilməsindən (SSQ) ibarət olmuşdur ki, bu da "sistematik icmal metodologiyasının əsas prinsipləri ilə uyğun gəlir, habelə məlumatların sürətli çatdırılmasına imkan verir" (Varker et al., 2015, p. 1199). SSQ çərçivəsində insan hüquqları qanunvericiliyində, iş yeri/insan resursları, hərbi xidmət, təhsil və idman sahələrində mövcud ədəbiyyat və böyüklər üçün müdafiə təminatları araşdırılmışdır. SSQ nəticəsində ortaya çıxan əsas məsələlər uşaqlar və böyüklər arasında hüquqi fərqlər, razılıq vermə qabiliyyəti, öz müqəddəratını təyin etmə hüququ və böyüklərin idmanda uşaqlarla müqayisədə üzləşdiyi əlavə risklər olmuşdur.

## Mərhələ 2: Onlayn multidisiplinar ekspert müzakirəsi

SSQ nəticəsində ortaya çıxan əsas məsələlər müxtəlif maraqlı tərəf qruplarını təmsil edən nümayəndələrlə onlayn müzakirələrin təşkili üçün istifadə edilmişdir. Lafboro Universitetindən etik razılıq aldıqdan sonra onlayn müzakirə forumuna keçid "Safe Sport International" tərəfindən siyahısı tərtib edilmiş müdafiə sahəsi üzrə ekspertlərə göndərilmişdir. Müzakirə mövzuları aşağıdakı sualları əhatə etmişdir: "Sizcə, idmanda böyüklərin müdafiəsi üzrə qabaqcıl təcrübə nədir?", "İdmanda 16-21 yaşlı şəxslərin müdafiəsi üçün qabaqcıl təcrübə nədən ibarətdir?" və "Böyüklərin müdafiəsi ilə uşaqların müdafiəsi arasındakı fərqlər nələrdir?" Aşağıdakı maraqlı tərəf qruplarını təmsil edən 33 ekspertdən cavablar alınıb: idmançılar (3 nəfər), məşqçilər (3 nəfər), könüllülər (4 nəfər), müdafiə üzrə mütəxəssislər (9 nəfər), tədqiqatçılar (7 nəfər), valideyn (1 nəfər), hüquq müdafiəçiləri (2 nəfər), məsləhətçilər (2 nəfər) və menecerlər (2 nəfər). İştirakçılar həvəskar və klub idmanından tutmuş elit milli və beynəlxalq yarışlara qədər bütün rəqabət səviyyələrində idman sahəsi ilə

məşğul olan şəxslər olmuşdur. İştirakçılar əsasən aşağıdakı regionlarda fəaliyyət göstərmişdir: Afrika (4 nəfər), Asiya (2 nəfər), Avstraliya (2 nəfər), Şimali Amerika (9 nəfər), Cənubi Amerika (2 nəfər), Avropa (4 nəfər), qlobal səviyyədə (10 nəfər). Bu müzakirədən əldə edilən əsas fikirlər ədəbiyyat təhlilinin nəticələri ilə birləşdirilmiş və "İdmanda böyüklərin beynəlxalq müdafiə təminatları"nın layihəsinin hazırlanması üçün istifadə edilmişdir.

## Mərhələ 3: Ekspertlərin rəyi

Layihə versiyası daha sonra "Safe Sport International" təşkilatının üç ekspert qrupu tərəfindən nəzərdən keçirilmişdir. Bu qruplar aşağıdakı istiqamətlərə fokuslanmışdır: idmançıların səsi (3 nəfər), təhsil, kommunikasiya və təlim (4 nəfər), tədqiqat (8 nəfər). Panel üzvlərinin rəyi daha sonra bu tədqiqatda təqdim olunan müdafiə təminatlarına daxil edilmişdir. Bütün iştirakçıların anonimliyini qorumaq üçün demoqrafik məlumatlar daxil edilməmişdir. Hər üç mərhələdə müəyyən edilmiş əsas mövzular ekoloji inkişaf modelinin əsas aspektlərinə uyğun olaraq tematik şəkildə təhlil edilmişdir (Bronfenbrenner, 1992; Cicchetti & Lynch, 1993).

# Nəticələr

İdmanda böyüklərə yönəlmiş müdafiə təminatlarının hazırlanması zərurəti geniş şəkildə dəstəklənmişdir. Ekspertlər müdafiənin idmanda hər kəs üçün inklüziv olmalı olduğu fikrini bölüşmüşlər. Məsələn, bir ekspert qeyd etmişdir:

> "Təşkilatlar idmanda iştirak edən hər kəsə şamil edilən müdafiə siyasətləri və prosedurlarına malik olmalıdır."

Bir çox iştirakçı Təminatların böyüklər üçün nəzərdə tutulan versiyasının praktik faydasını vurğulamışdır. Məsələn, bir ekspert belə qeyd etmişdir:

> *"Ölkəmdəki vəziyyətə gəldikdə, düşünürəm ki, Olimpiya Komitəsi və bütün idman federasiyaları böyükləri də əhatə edən inklüziv müdafiə təminatlarına dair bir çərçivədən çox faydalana bilər, çünki profilaktika strategiyaları və siyasətləri daha çox uşaqlara və gənclərə yönəlmiş, böyüklər isə müəyyən mənada "kənarda qalmışdır." Bu, idman ictimaiyyətində artan narahatlığa və sorğulara səbəb olur ki, niyə müdafiə təminatları yalnız gənclərə şamil edilməlidir."*

Müdafiə təminatlarının böyüklər üçün nəzərdə tutulan versiyasının hazırlanması ilə bağlı bir sıra əsaslar müəyyən edilmişdir. Bunlara aşağıdakılar daxildir: öz müqəddəratını təyinetmə anlayışı, sərbəst qərar vermənin artması, razılıqla bağlı fərqli mülahizələr, ədalətsiz müqavilə şərtləri, artıq yetkin şəxs olduqları üçün onlara inanılmama riski, iş yoldaşları barədə məlumat verməkdən çəkinmə, yetkin olduqda öz həssaslıqlarını etiraf etməkdən çəkinmə və idman rəsmilərinin müdafiəsinin olmaması. Müəyyən edilmiş məsələlərin tam siyahısı ekoloji inkişaf modelindən çərçivə kimi istifadə etməklə, Cədvəl 1-də təqdim edilmişdir (Bronfenbrenner, 1992; Cicchetti & Lynch, 1993).

## Cədvəl 1

*İdmanda böyüklərin müdafiəsi ilə bağlı xüsusi məsələlər üzrə ekoloji inkişaf modeli*

| Ekoloji inkişaf modelinin kateqoriyası | Əsas məsələlər |
| --- | --- |
| Özünüdərk (ontoloji inkişaf) | Öz müqəddəratını təyinetmə<br>Sərbəst qərar vermə<br>Əqli qabiliyyət<br>Özünü təzyiqlərə məruz qalan qrupun/ insanların bir hissəsi hesab etmə<br>Yetkinlik dövründə inkişaf mərhələsi (məs.  18 yaş ilə 35 yaş arasındakı fərqlər)<br>Karyera mərhələsi (karyerada irəliləmə imkanı)<br>Məhsuldarlıqla bağlı təzyiq<br>Müdafiə siyasətlərindən xəbərsiz olmaq |
| Mikrosistem: münasibətlər, o cümlədən idman daxilindəki münasibətlər | Münasibətlərdə səlahiyyət bərabərsizliyi (məs. məşqçi-idmançı)<br>Maraqlı tərəflər arasında yaxın münasibətlər (məs. məşqçi-idmançı)<br>Digər şəxslərin məhsuldarlıqla bağlı təzyiqləri |
| Ekzosistem – ictimaiyyət, o cümlədən idman ictimaiyyəti | "Nəyin bahasına olursa olsun qalib gəlmək" prinsipinə əsaslanan idman sistemləri<br>İş yoldaşları barədə məlumat verməkdən çəkinmə<br>Ədalətsiz müqavilə şərtləri<br>Elit idmançılar üçün xüsusi risklər<br>İdmanda böyüklərin müdafiəsi ilə bağlı aydınlığın olmaması |

| Ekoloji inkişaf modelinin kateqoriyası | Əsas məsələlər |
|---|---|
| Makrosistem – mədəniyyət, o cümlədən idman mədəniyyəti | İdmanda qadınlara dəstəyin olmaması<br>Marjinal qruplara dəstəyin olmaması<br>Cins, yaş, iyerarxiya ilə bağlı sosial normalar<br>Beynəlxalq və milli qaydalar arasındakı fərqlər<br>Müxtəlif normalara malik fərqli ölkələrə səyahət<br>Yetkin şəxs olduqları üçün onlara inanılmama riski<br>Öz müqəddəratını təyinetmə hüququ |

SSQ, multidisiplinar ekspert müzakirələri və ekspert qruplarının rəyləri nəticəsində hazırlanmış "İdmanda böyüklərin beynəlxalq müdafiə təminatları" aşağıda təqdim olunur. Bu Təminatlar mövcud "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları"nı tamamlayır (Rhind et al., 2020).

Əsas dəyişikliklərə "uşaq" sözünün "böyük" ilə əvəz edilməsi, təşkilat tərəfindən bütün maraqlı tərəflər üçün nəzərdə tutulan kənar müşahidəçi və təhsil proqramlarının daxil edilməsi, informatorların qorunması və mütəşəkkil məlumat vermə sisteminin yaradılmasının zəruriliyi daxildir. İdmanda böyüklərə tətbiq üçün "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları"nda edilən bütün dəyişikliklər qalın şriftlə göstərilmişdir. "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları"na daxil edilməyən əlavə tövsiyələr də qalın şriftlə göstərilmişdir.

# 8

## Müdafiə təminatları

## 8 Müdafiə təminatları

01- Siyasətin hazırlanması
02- Müdafiə ilə bağlı problemlərə cavab vermə sisteminin hazırlanması
03- Məsləhət və dəstək
04- Böyüklər üçün risklərin minimuma endirilməsi
05- Davranışla bağlı təlimatlar
06- İşçilərin işə qəbulu, təlimi və məlumatlandırılması
07- Tərəfdaşlarla iş
08- Monitorinq və qiymətləndirmə

# MÜDAFİƏ TƏMİNATI 01
## Siyasətin hazırlanması

| |
|---|
| Nə? — **18 yaşdan yuxarı böyüklər** üçün idman fəaliyyətləri təmin edən və ya buna görə məsuliyyət daşıyan hər bir təşkilatın böyükləri müdafiə siyasəti olmalıdır. Bu, idmanda iştirak edən **böyükləri** zərərdən qorumağa sadiqliyi göstərən və prosedurların hazırlanması üçün çərçivə təmin edən bir niyyət bəyanatıdır. |
| Nə üçün? — Müdafiə siyasəti **bütün böyüklərin** qorunması və **təhlükəsizliyi** üçün nələrin tələb olunduğunu hər kəsə aydın şəkildə izah edir. O, **böyüklər** üçün təhlükəsiz və müsbət mühit yaratmağa və təşkilatın onlara qayğı göstərmək öhdəliyinə ciddi yanaşdığını göstərməyə kömək edir. |
| Sizin təşkilatınızla qarşılıqlı əlaqədə olan bütün böyükləri əhatə edən, aydın tərtib olunmuş və asan başa düşülən bir müdafiə siyasətiniz vardır. |
| Siyasət böyüklərə yetirilə biləcək potensial zərər haqqında anlayışınızı aydın şəkildə təsvir edir və onun bütün formalarını müəyyən edir. |
| Siyasət işinizin bütün aspektlərində təşkilatınızın **böyükləri** qorumaq öhdəliyini əks etdirir. |
| Siyasət bütün **böyüklərin** bərabər qorunma hüquqlarına malik olduğunu aydın şəkildə göstərir **və təzyiqə məruz qalan müəyyən qruplara/kimliklərə mənsub olan şəxslərin qarşılıqlı əlaqəsini tanıyır.** |
| Siyasət təşkilatınızın ali rəhbərliyi tərəfindən rəsmi olaraq təsdiq edilir. |

| |
|---|
| Təşkilatın ali rəhbərliyi siyasətin həyata keçirilməsinə nəzarət etməyə cavabdehdir **və siyasətin həyata keçirilməsinə görə qarşılarında cavabdehlik daşıdığı şəxsləri müəyyən edir.** |
| Bütün maraqlı tərəflər siyasətlə tanış olub və razılaşıblar. |
| Təşkilatınız siyasəti ilkin olaraq hazırlayarkən və/və ya davamlı olaraq yeniləyərkən **iştirakçılar** və öz işçiləri ilə məsləhətləşib. |
| **Siyasət böyüklər və uşaqlar arasındakı fərqi aydın şəkildə müəyyən edir və böyüklərin öz müqəddəratını təyinetmə hüququnu nəzərə alır.** |
| **Siyasət qısnama və kobud rəftar haqqında anlayışınızı, eləcə də böyüklərə yetirilə biləcək potensial zərərin bütün formalarının təriflərini aydın şəkildə təsvir edir.** |
| **Siyasət bütün maraqlı tərəflər qarşısında vəzifələrinizi və qayğı öhdəliyinizi təsdiq edir.** |

# MÜDAFİƏ TƏMİNATI 02

## Müdafiə ilə bağlı problemlərə cavab vermə sisteminin hazırlanması

Nə? — Prosedurlar təşkilatın siyasətini həyata keçirmək üçün zəruri olan prosesləri təsvir edir və müxtəlif vəziyyətlərdə nə edilməli olduğunu göstərən aydın, addım-addım təlimatı təqdim edir. Prosedurlar rolları, məsuliyyətləri və rabitə kanallarını təsvir edir. **Pis davranış və ya kobud rəftarla bağlı məlumatlara və ya** problemlərə baxılması və **təşkilat daxilindəki bütün maraqlı tərəflərə** dəstək göstərilməsi üçün effektiv sistemlər və strukturlar tələb olunur. Siz mövcud sistemlərə əsaslanmalı və öz rolunuzu müvafiq milli sistemləri və qanunvericiliyi nəzərə almaqla başa düşməlisiniz. **Siyasətiniz bütün böyüklər üçün məlumatvermə prosesini izah etməlidir.**

Nə üçün? — Müdafiənin effektiv olması üçün prosedurlar **böyüklərdə** inam yaratmalıdır. Prosedurlar **böyüklərin** təhlükəsizliyi və ya rifahı ilə bağlı problemlərə vaxtında cavab verilməsini təmin etməyə kömək edir. Onlar həmçinin bəzi **böyüklərin** qorunma ehtiyaclarının müəyyən edilmədiyi və ya təmin olunmadığı hallarda, onları kontekstual olaraq kobud rəftara qarşı daha həssas vəziyyətə sala biləcək spesifik amilləri də nəzərə alır. Effektiv müdafiə strategiyaları həmçinin qanunvericiliyə və təlimatlara əməl etməyinizə və onları həyata keçirməyinizə kömək edir. Böyüklərə qarşı zorakılıq narahatedicidir və bununla mübarizə aparmaq çətin ola bilər.

Həm təşkilatın daxilində, həm də ondan kənarda **böyüklərin** təhlükəsizliyi və ya rifahı ilə bağlı problemlər yaranarsa, nə edilməli olduğu barədə addım-addım təlimat təqdim edən aydın prosedurlar mövcuddur.

Təşkilatınız insident, iddia və ya **tələblər** zamanı və ondan sonra **böyüklərə**, könüllülərə və işçilərə dəstək göstərmək üçün tədbirlər nəzərdə tutmuşdur.

Təşkilatınızda müdafiə prosesinə rəhbərlik etmək üçün təyin edilmiş məsul bir işçi mövcuddur.

| |
|---|
| Təşkilatınız **böyüklərin** hüquq və imkanları genişləndirən proses çərçivəsində onların **hər birinə** öz hüquqları barədə və narahatlıq keçirdikləri halda kimə müraciət edə biləcəkləri barədə məlumat verir. |
| Təşkilatınız hadisə məlum olduqdan sonra nələrin baş verə biləcəyi barədə **bütün böyüklərə** hər kəsin asanlıqla başa düşəcəyi formatda və dildə məlumat təqdim edib. |
| Təşkilatınızın müdafiə ilə bağlı problemlərə və **iddialara** baxılması üçün ədalətli və şəffaf proses, o cümlədən apelyasiya prosesi vardır. |
| Müdafiə ilə bağlı bütün problemlər, insidentlər və **iddialar** qeydə alınır, onlar üzrə monitorinq aparılır və onlar təhlükəsiz şəkildə saxlanılır. |
| Təşkilatınız cavabvermə sistemini ilkin olaraq hazırlayarkən və/və ya davamlı olaraq yeniləyərkən **maraqlı tərəflər olan böyüklər**, onlara qayğı göstərən şəxslər və öz işçiləri ilə məsləhətləşib. |
| **Təşkilatınızda informatorların hüquqlarını qorumaq üçün sistem vardır.** |
| **Təşkilatınız bütün fərdlərin rifahı, salamatlığı və müdafiəsinin açıq müzakirəsinə imkan verən bir mədəniyyət yaratmağa və tətbiq etməyə ardıcıl şəkildə səy göstərir.** |
| **Təşkilatınız müdafiə ilə bağlı əvvəllər mövcud olmuş problemləri bildirmək və onlara cavab vermək üçün bir sistemə malikdir.** |

# MÜDAFİƏ TƏMİNATI 03

## Məsləhət və dəstək

| |
|---|
| **Nə? — Böyüklərin** müdafiəsi üzrə məsul olan şəxslərə zəruri məlumat və dəstəyin verilməsi üçün görülən tədbirlər. **Böyüklərə** haradan kömək və dəstək almaq barədə məsləhətlər verilir. |
| Nə üçün? — Siz insanlara **böyüklərin** müdafiəsində öz rollarını oynamağa kömək edəcək məsləhət və dəstəyin olmasını təmin etməlisiniz ki, onlar kimə müraciət edə biləcəklərini bilsinlər. |
| Milli və/və ya yerli səviyyədə **böyüklərin** müdafiəsi, **təhlükəsizlik mədəniyyətinin yaradılması və saxlanması** ilə bağlı dəstək göstərən müvafiq **böyükləri** müdafiə agentlikləri, QHT-lər və icma qrupları ilə əlaqə qurulur. |
| Təşkilatınız **böyüklərin** təhlükəsizliyinə cavabdeh olan işçilərin mütəxəssislərdən məsləhət, dəstək və məlumatlar almaq imkanını təmin edir. |
| **Böyüklərə** özlərini və bir-birlərini necə qorumaqla bağlı dəstək və məsləhət verilir. |
| Sisteminiz əlavə həssaslığa malik **böyüklərin** (məs. əlilliyi olanların) yardım almaqda əlavə maneələrlə qarşılaşa biləcəyini qəbul edir. |
| **Təşkilatınız siyasətin praktikada tətbiqini təkmilləşdirmək üçün təşkilat daxilində müdafiə ilə bağlı baş vermiş hadisələrin təhlili sisteminə malikdir.** |
| **Təşkilatınız müdafiə ilə bağlı problem və ya hadisə ilə əlaqəsi olan bütün fərdlərə dəstəyi təmin edir.** |

# MÜDAFİƏ TƏMİNATI 04
## Böyüklər üçün risklərin minimuma endirilməsi

| |
|---|
| Nə? — **Böyüklər üçün qeyri-təsadüfi zorakılıq və ya zərər** risklərini **qiymətləndirmək və minimuma endirmək üçün tədbirlər.** |
| **Nə üçün?** — İdman sahəsində ödənişli və ya könüllü olaraq işləyən və ya işləmək istəyən bəzi insanlar **böyüklər** üçün təhlükə yaradır.<br>**Böyüklər** əlverişsiz şəraitə yerləşdirildikdə və ya həddən artıq gərgin məşq kimi əlverişsiz fəaliyyətlərdə iştirakları istənildikdə və onlara qarşı qeyri-real gözləntilər olduqda da risk altında ola bilərlər. Bu risklər müdafiə təminatları vasitəsilə minimuma endirilə bilər. |
| Tədbirlər, nəqliyyat vasitələri, yerləşdirmə yerləri və məkanlarla bağlı risk qiymətləndirmələri mövcuddur və həyata keçirilir. |
| Risk qiymətləndirməsi nəticəsində müəyyən edilmiş hər hansı risklərin minimuma endirilməsi **və müəyyən edilmiş risklərin fəal şəkildə idarə olunması** üçün tədbirlər görülür. |
| **Risklər çox ciddi hesab olunarsa, tədbir həyata keçirilmir.** |
| Bəzi **böyüklərin** irq, cins, yaş, dini inanc, əlillik, cinsi oriyentasiya, sosial mənşə və ya mədəni mənsubiyyətinə görə üzləşdiyi riskləri müəyyən edə bilmələri üçün işçilərə və könüllülərə təlim keçilir. |
| **Hər hansı bir iştirakçı qrupuna xas olan risklər müəyyən olunur və müvafiq cavab tədbirləri görülür.** |

# MÜDAFİƏ TƏMİNATI 05
## Davranış qaydaları

| |
|---|
| **Nə?** — Məqbul davranış standartlarını müəyyən edən və mövcud qabaqcıl təcrübəni təşviq edən davranış kodeksi. |
| **Nə üçün?** — Böyüklər üçün nəzərdə tutulan idman təhlükəsiz, pozitiv və həvəsləndirici bir mühitdə həyata keçirilməlidir. Davranış standartları hamı üçün məqbul bir nümunə yaradır. |
| Təşkilatınız insanlarla ləyaqət, hörmət, həssaslıq və dürüstlüklə rəftar edilməli olduğunu bildirən yazılı davranış kodeksinə (qaydalarına) malikdir. |
| Təşkilatınız **həssas vəziyyətdə olan böyüklərin** başqa şəxslərin himayəsinə verilməsi və ya gecələmə halları daxil olmaqla evdən kənarda keçirilən vaxtı əhatə edən fəaliyyətlərlə bağlı tövsiyə və tələblərə malikdir. |
| Təşkilatlar **həssas vəziyyətdə olan böyüklərin** başqa şəxslərin himayəsinə verilməsində iştirak edərsə, **böyüklərin** təəssüratını öyrənmək üçün onlarla müntəzəm görüşlər keçirilir. |
| Təşkilatınız əlilliyi olan **böyüklərlə** işləmək üçün xüsusi təlimatlara malikdir. |
| Təşkilatınız informasiya texnologiyalarından və sosial mediadan düzgün istifadəyə dair təlimatlara malikdir. |
| Təşkilatınız **idmanda bütün böyüklərə hörmət və ləyaqətlə yanaşılması** haqqında təlimatlara malikdir. |
| Təşkilatınız **böyüklərdən** başqalarına, **o cümlədən uşaqlara** qarşı gözlənilən məqbul davranışla bağlı təlimatlara (məs. davranış kodeksi) malikdir. |

| |
|---|
| Davranış qaydalarının pozulmasının nəticələri aydın şəkildə göstərilmişdir və təşkilatın intizam prosedurlarında nəzərdə tutulur. |
| Bu qaydalara əməl olunmasını təmin etməyə görə təşkilatın ali rəhbərliyi məsuldur. |
| Təşkilatınız davranış qaydalarını ilkin olaraq hazırlayarkən və/və ya davamlı olaraq yeniləyərkən **idmançılar, öz işçiləri və bütün müvafiq maraqlı tərəflərlə** məsləhətləşib. |
| **Təşkilatınız idman təşkilatı daxilində işçilərlə idmançılar və digər böyüklər arasında yaxın münasibətlərə dair aydın təlimatlara malikdir.** |

# MÜDAFİƏ TƏMİNATI 06
## İşçilərin işə qəbulu, təlimi və məlumatlandırılması

Nə? — Müvafiq əməkdaşların işə götürülməsi, lazımi bacarıqların inkişafı və saxlanması üçün imkanların yaradılması və müdafiə ilə bağlı məlumatların çatdırılması.

Nə üçün? — **Böyüklərlə** təmasda olan hər kəs onların **təhlükəsizliyi və rifahında** iştirak etməlidir. Onlar bu vəzifəni yalnız məlumatlı olduqda, zəruri anlayışa malik olduqda və əsas bacarıqlara yiyələnmək və onları tətbiq etmək imkanına malik olduqda inamla və səmərəli şəkildə yerinə yetirə bilərlər.
**Böyüklərin** idman fəaliyyətini təmin edən təşkilatlar işçilər və könüllülər üçün təlim və inkişaf imkanlarının yaradılmasına cavabdehdir. **Təşkilatlar həmçinin başqalarına hörmət və ləyaqətlə yanaşan və insanlara qarşı istismar, kobud rəftar, qısnama və ya etinasızlıq xarakterli heç bir davranışa yol verməyən şəxsləri işə götürməyə cavabdehdir.**

Vəzifə təlimatında insanlarla ləyaqət, hörmət, həssaslıq və dürüstlüklə rəftar etməklə bağlı müddəalar öz əksini tapır.

İşə qəbul prosesi müsahibədən, xasiyyətnamə/iş yerindən arayışla tanışlıqdan və yerli qanunvericiliyə uyğun anket məlumatlarının yoxlanılmasından ibarətdir.

Bütün işçilər, könüllülər, **idmançılar** və digər müvafiq şəxslər və **maraqlı tərəflər böyüklərin** müdafiəsi və qorunması, habelə problemlər barədə məlumatın verilməsi üzrə təlim keçmişlər.

Təlimin həyata keçirilməsinə nəzarət olunmasına təşkilatın ali rəhbərliyi cavabdehdir.

| |
|---|
| Bütün işçilər, könüllülər, **idmançılar** və uşaqların müdafiəsi ilə bağlı xüsusi vəzifəsi olan **əsas maraqlı tərəflər** və müvafiq şəxslər müntəzəm əlavə təlim və mütəxəssis dəstəyi almaq imkanına malikdirlər. |
| Təşkilatınız işə qəbul, təlim və ixtisas artırma prosedurlarını ilkin olaraq hazırlayarkən və/və ya davamlı olaraq yeniləyərkən **idmançılar**, onlara qayğı göstərən şəxslər, **əsas maraqlı tərəflər** və öz işçiləri ilə məsləhətləşib. |
| **Təşkilatınız kənar müşahidəçilər üçün təlimlər keçirir, eləcə də informatorları qoruyur.** |
| **Təşkilatınız bütün əlaqədar şəxslər üçün əlçatan müvafiq təhsil və təlim imkanları təmin edir.** |
| **Təşkilatınızın müdafiə ilə bağlı mövqeyi geniş ictimaiyyətə, məsələn, bütün azarkeşlərə və tamaşaçılara çatdırılır.** |
| **Təlimləriniz bu çərçivədə qeyd edilən idman sahəsində mövcud müdafiə standartlarına uyğundur.** |
| **Müdafiə ilə bağlı bütün problemlərə və məlumat verməyə dair prosedurlar və siyasətlər bütün şəxslər üçün əlçatandır.** |

# MÜDAFİƏ TƏMİNATI 07
## Tərəfdaşlarla iş

| |
|---|
| Nə? — Təşkilatın tərəfdaş təşkilatlar tərəfindən **böyüklərin** müdafiəsi tədbirlərinin qəbulunu və tətbiqini təşviq etmək və bunun üçün təsir göstərmək məqsədilə gördüyü tədbirlər. |
| Nə üçün? — Bir neçə idman təşkilatı uşaq və gənclərlə bağlı həm strateji, həm də icraedici rol oynayır. Digər təşkilatlarla təşkilati tərəfdaşlıq, üzvlük, sponsorluq və ya podrat münasibətləri mövcud olarsa və ya inkişaf edərsə, təşkilat müdafiə tədbirlərinin həyata keçirilməsini təşviq etmək üçün öz təsirindən istifadə etməlidir. Təşkilatınız adekvat müdafiə tədbirlərinin tətbiqi ilə bağlı dəstək və resurslar təqdim etməlidir (və ya onların mənbəyini göstərməlidir). **Təşkilat "İdmanda hamı üçün beynəlxalq müdafiə təminatları"nın [yəni, həm uşaq, həm də böyüklər üçün olan versiyaların] qəbulunu fəal şəkildə təşviq etməlidir.** |
| Təşkilatınız müdafiə ilə bağlı ortaq gözləntilərin olmasını təmin etmək üçün tərəfdaşlarla/üzvlərlə iş aparmışdır. |
| Təşkilatınız idmanda **böyüklərin** təhlükəsizliyini artırmaq barədə biliklərin mübadiləsi yollarını razılaşdırmaq üçün tərəfdaşlarla/üzvlərlə iş aparmışdır. |
| Təşkilatınız **böyüklərlə** işləməklə bağlı mövcud qabaqcıl təcrübəyə dair yazılı məlumat paylaşıb **(məs. "İdmanda hamı üçün beynəlxalq müdafiə təminatları"nı [yəni, həm uşaq, həm də böyüklər üçün olan versiyaları] paylaşıb).** |
| Təşkilatınızda qəbul edilmiş müdafiə siyasəti tərəfdaşlarla/üzvlərlə müqavilələrin ayrılmaz tərkib hissəsidir. |

| |
|---|
| Təşkilatınız bu siyasət haqqında məlumatı icmanız, tərəfdaşlarınız və üzvləriniz arasında yayır. |
| Təşkilatınız icmalarınızı **böyüklərin** müdafiəsinin əhəmiyyəti barədə maarifləndirir. |
| **Siz təhlükəsiz idman mühitlərinin yaradılmasına kömək etmək üçün zərərçəkmiş qrupları və müdafiə qrupları ilə fəal əməkdaşlıq edirsiniz.** |

# MÜDAFİƏ TƏMİNATI 08

## Monitorinq və qiymətləndirmə

| |
|---|
| Nə? — Bütün müvafiq qrupları cəlb etməklə, uyğunluq və effektivliyin davamlı monitorinqi. |
| Nə üçün? — Təşkilatlar müdafiə tədbirlərinin təsirli olub-olmadığını, nələrin təkmilləşdirilməli və uyğunlaşdırılmalı olduğunu bilməli və ya risk tendensiyalarını müəyyən etməlidirlər. |
| — Təşkilatınızın aşağıdakı sahələrdə effektivliyini izləmək və qiymətləndirmək üçün sistemlər mövcuddur:<br>• siyasət<br>• müdafiə ilə bağlı problemlərə cavab vermə sistemi<br>• məsləhət və dəstək<br>• **böyüklər** üçün risklərin minimuma endirilməsi sistemləri<br>• davranış qaydaları<br>• işçilərin işə qəbulu, təlimi və məlumatlandırılması<br>• **böyüklərin** müdafiəsi üzrə tərəfdaşlarla aparılan iş |
| Monitorinq və qiymətləndirmə sisteminin həyata keçirilməsinə nəzarət olunmasına təşkilatın ali rəhbərliyi cavabdehdir. |
| Təşkilatınız monitorinq və qiymətləndirmə sisteminizi ilkin olaraq hazırlayarkən və/və ya davamlı olaraq yeniləyərkən **böyüklər**, valideynlər/qayğı göstərən şəxslər, öz işçiləri və **bütün müvafiq maraqlı tərəflərlə** məsləhətləşib. |

## Uşaqlıqdan yetkinliyə keçid prosesinin nəzərdən keçirilməsi

Böyüklər üçün müdafiə təminatlarının hazırlanması ilə yanaşı, iştirakçılar uşaqlıq və yetkinlik dövrləri arasında keçidin nəzərə alınmasının vacibliyini vurğulamışlar. Bir iştirakçının dediyi kimi, "uşaqlar bir gecədə yetkin şəxslərə çevrilmirlər". Təminatların uşaqlar və böyüklər üçün nəzərdə tutulan versiyaları arasında birdəfəlik kütləvi dəyişiklik deyil, tədricən və rəvan bir keçid olmalıdır. Digər bir iştirakçı bunu aşağıdakı kimi izah etmişdir:

"Müdafiə siyasətləri uşaqlıqdan yetkinliyə keçidi nəzərə almalıdır. Məhdud həyat təcrübəsi olan gənclər qeyri-təsadüfi zərərlərə qarşı həssasdırlar, çünki onların üzləşə biləcəkləri zərəri qabaqcadan görmək üçün kifayət qədər həyat təcrübəsi və ya onunla mübarizə aparmaq bacarığı olmaya bilər."

| Nə? — İdmanda böyüklər üçün təminatların hazırlanması və həyata keçirilməsi zamanı uşaqlıqdan yetkinliyə keçidlə bağlı xüsusi mülahizələri nəzərə almaq lazımdır. |
| --- |
| Müdafiə təminatları bu kontekstdə uşaqlıqdan yetkinlik həyatına keçid dövrü ilə bağlı qanunvericilikdə və qayğı öhdəliyindəki hər hansı dəyişiklikləri nəzərə almalıdır. |
| Müdafiə təminatları müxtəlif yaş və inkişaf mərhələlərinə uyğun və uyğunlaşdırıla bilən olmalıdır. |
| Monitorinq və qiymətləndirmə sisteminin həyata keçirilməsinə nəzarət olunmasına təşkilatın ali rəhbərliyi cavabdehdir. |
| Uşaqların müdafiəsi və böyüklərin müdafiəsi siyasətləri ayrı olsa da, onlar bir-birinə uyğun olmalıdır. |

# Müzakirə

Bu sənədin məqsədi idmanda böyüklər üçün ilk beynəlxalq müdafiə təminatları dəstini hazırlamaqdır. İdmanda böyüklər uşaqlar və risk qrupuna aid olan böyüklər kimi pis rəftarın bütün formalarına məruz qala bilərlər və buna görə də eyni şəkildə müdafiə olunmalıdırlar. Bu müdafiə təminatları dəsti bu cür böyükləri qorumaqla yanaşı, onların razılıq vermək qabiliyyəti və öz müqəddəratını təyinetmə hüququ kimi uşaqlardan əsas fərqlərini də nəzərə alır. Hazırkı tədqiqatın nəticələri idmanın bütün səviyyələrində müdafiə aspektini formalaşdırır və hamı üçün təhlükəsiz idman hüququnu möhkəmləndirir. İdman sahəsindəki bütün qruplar və şəxsiyyətlər idmanda qısnama, kobud rəftar, istismar və zərərin olmamasını təmin etmək üçün təminatlara ehtiyac duyurlar.

Bütün tədqiqatlar kimi, hazırkı tədqiqatın da öz məhdudiyyətləri vardır. Bunlara məlumatların insanların qavrayış və təəssüratlarına əsaslanması faktı daxildir. Biz müxtəlif maraqlı tərəf qruplarını təmsil edən ekspertlərlə işləməyə çalışmışıq. İndi isə qlobal idman sahəsində müxtəlif baxışları təmsil edən şəxslərdən rəy əldə etməyə ehtiyac vardır. Bundan əlavə, bu müdafiə təminatlarının praktikada effektivliyini, səmərəliliyini və mümkünlüyünü qiymətləndirmək məqsədilə onları nümunəvi bir təşkilat qrupu ilə sınaqdan keçirmək üçün əsaslı zəmin mövcuddur. Bu, idmanda hər kəsin təcrübəsini optimallaşdırmaq məqsədilə hazırkı müdafiə təminatlarının tətbiqini asanlaşdırmaq üçün resursların və təlimlərin hazırlanması üçün əlavə əsas olacaqdır.

Artıq "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları" (Rhind & Owusu-Sekyere, 2020) və idmanda böyüklərin müdafiə təminatları birlikdə "İnklüziv müdafiə təminatları"nı təşkil edir. İdmanda uşaqlar və böyüklərlə bağlı iki ayrı, lakin bir-birini tamamlayan müdafiə təminatları dəstinin olması hər kəsi qorumaq üçün hərtərəfli, lakin fərdi yanaşmaya imkan verir.

# İstinadlar

**Brake, D. L. (2011).** Məşqçi-idmançı münasibətlərini çərçivədə saxlamaq üçün IX başlıqdan kənara çıxmaq. *Marq. Sports L. Rev.*, *22*, 395.

**Brake, D. L., & Burton Nelson, M. (2012)**. *Çərçivədən çıxmamaq: NCAA-nın tələbə-idmançılar və atletika şöbəsinin işçiləri arasında uyğunsuz münasibətlərin qarşısını almaq üçün standart siyasəti.*

**Bronfenbrenner, U. (1992).** *Ekoloji sistemlər nəzəriyyəsi.* Jessica Kingsley Publishers.

**Cicchetti, D., & Lynch, M. (1993).** İcma zorakılığının və uşaqlarla pis rəftarın ekoloji/keçid modelinə doğru: Uşaqların inkişafı üçün nəticələr. *Psychiatry*, *56* (1), 96–118.

**David, P. (2005).** Gənclər idmanında insan hüquqları: rəqabətli idmanda uşaq hüquqlarının tənqidi icmalı. Routledge.

**Fasting, K., Brackenridge, C. H., & Sundgot-Borgen, J. (2003).** Norveçli elit qadın idmançılar və idmançı olmayan şəxslər arasında cinsi qısnama və kobud rəftar təcrübəsi. *Research Quarterly for Exercise and Sport*, *74*(1), 84–97. https://doi.org/10.1080/02701367.2003.10609067

**Grey-Thompson DBE, T. (2017).** *İdmanda qayğı öhdəliyi*. https://assets.publishing.service.gov.uk/government/upload/system/uploads/attachment_data/file/610130/Duty_of_Care_Review_-_April_2017_2.pdf

**Hogshead-Makar, N., & Steinbach, S. E. (2002).** Kolleclər arası atletikada cinsi qısnama iddiaları üçün unikal mühit: İdman həyatının reallıqlarını potensial iddiaların qarşısının alınması ilə balanslaşdırmaq. *Marq. Sports L. Rev.*, *13*, 173.

**Mountjoy, M. L., Brackenridge, C. H., Arrington, M., Blauwet, C., Carska-Sheppard, A., Fasting, K., Kirby, S., Leahy, T., Marks, S., Martin, K., Starr, K., Tiivas, A., & Budgett, R. (2016).** Beynəlxalq Olimpiya Komitəsinin konsensus bəyanatı: İdmanda qısnama və kobud rəftar (qeyri-təsadüfi zorakılıq). *British Journal of Sports Medicine*, *50*(17), 1019–1029. https://doi.org/10.1136/ bjsports-2016-096121

**Mountjoy, M. L., Rhind, D. J. A., Tiivas, A., & Leglise, M. (2015).** İdmanda uşaq idmançının müdafiəsi: BOK-un gənc idmançıların inkişafı modeli üçün icmal, çərçivə və tövsiyələr. *British Journal of Sports Medicine*, *49*(13), 883-886. https://doi.org/10.1136/ bjsports-2015-094619

**Rhind, D. J. A., Kay, T., Hills, L., & Owusu-Sekyere, F. (2017).** İdmanda uşaqların müdafiəsi sisteminin qurulması: Səkkiz CHILDREN prinsipi. *Journal of Sport and Social Issues*, *41*(2), 151–171.

**Rhind, D. J. A., McDermott, J., Lambert, E., & Koleva, I. (2015).** İdmanda müdafiə ilə bağlı hadisələrin təhlili. *Child Abuse Review*, *24*(6), 418–426. https://doi.org/10.1002/ car.2306

**Rhind, D. J. A., & Owusu-Sekyere, F. (2019).** "İdmanda uşaqların beynəlxalq müdafiə təminatları" istiqamətində aparılan işin nəticələrinin qiymətləndirilməsi. *Sport Management Review*, *23*(1), 104–116.

**Rhind, D. J. A., & Owusu-Sekyere, F. (2020).** *İdmanda uşaqların beynəlxalq müdafiə təminatları: Müdafiə mədəniyyətinin formalaşdırılması və möhkəmləndirilməsi*. Routledge.

United Nations. (1948). *Ümumdünya İnsan Hüquqları Bəyannaməsi*.

**Unrepresented Nations & Peoples Organization. (2017).** *Öz müqəddəratını təyinetmə*. https://unpo.org/article/4957

**Varker, T., Forbes, D., Dell, L., Weston, A., Merlin, T., Hodson, S., & O'Donnell, M. (2015).** Sübutların sürətli qiymətləndirilməsi: yeni yaranan metodologiyanın şəffaflığının artırılması. *Journal of Evaluation in Clinical Practice*, *21*(6), 1199–1204.